# NİKOLAY RUBAKİNİN BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİNDƏ İNFORMASİYA DÖVRİYYƏSİ

**E.L.ƏJDƏROV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə görkəmli rus kitabxanaşünas alimi Nikolay Rubakinin biblio-psixologiya nəzəriyyəsinin müasir informasiya cəmiyyəti ilə əlaqəli qanunları şərh edilir, informasiya dövriyyəsinin bibliopsixoloji tərəfləri göstərilir.*

"İnformasiya dövriyyəsi anlayışı" kitabxanaşünaslıq, sosiologiya və psixologiya elmlərinin əlaqəsində daha geniş formada ifadə olunur. Bir çox tədqiqatçılar informasiya, məlumatların təhlilini müxtəlif aspektdə aparmış, bu sahədə sanballı konsepsiyalar yaratmışlar. Onlardan biri də Azərbaycan kitabxanaşüaslığının banisi Əməkdar elm xadimi, prof. A.Xələfovdur. Hər hansı bir problemin tədqiqi obyektivlik meyarına söykənəndə daha məhsuldar nəticələr verir. Bu meyarları öz tədqiqatlarında nəzərə alan prof. A.Xələfov cəmiyyətin informasiya təminatının yerinə yetirilməsini önəmli bir fakt kimi qeyd edir. O göstərir ki, "Kitabxanaların zaman keçdikcə cəmiyyətin informasiya təminatında yaxından və demək olar ki, alternativsiz iştirakı onları kommunikativ sistemlərin əsas təminat bazasına çevirmişdir ki, bu da cəmiyyətin inkişafında kitabxanaların elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyaları ilə yanaşı, mənəvi və humanitar funksiyalarının yüksəldilməsini tələb edir" [1, 143]. Unutmaq olmaz ki, yaşadığımız dövr "informasiya" əsridir və mövcud cəmiyyət informasiyasız yaşaya bilməz.

Cəmiyyətdə informasiya dövriyyəsi bir çox vasitələrlə yanaşı əlbəttə ki, ən çox mütaliə vasitəsi ilə baş verir. Mütaliə isə müxtəlif informasiya daşıyıcıları vasitəsi ilə həyata keçir. Belə informasiya daşıyıcısı kitab, elektron nəşr və s. ola bilər. İnformasiya daşıyıcılarına münasibətdə prof. A.Xələfov daha geniş prizmadan yanaşaraq informasiyanın mütaliə yolu ilə qəbulunun sosial xarakterini qeyd edərək göstərir ki, "Mütaliə sosiologiyasının meydana gəlməsi və inkişafı, kitabxanalarda onun müddəalarından istifadə edilməsi, kitab dövriyyəsi problemləri üzrə tədqiqat işinin genişlənməsinə səbəb olmuşdur" [1, 244]. Əlbəttə, bu fikirlərlə razılaşmamaq olmaz. Ona görə ki, kitab sosioloji münasibətlərin inkişafında və ictimai əlaqələrin qurulmasında müstəsna əhəmiyyətə malikdir. Bununla yanaşı sosioloji proses kimi təqdimində dosent S.Rzayev qeyd edir: "Müasir elm mütaliəyə, onun mahiyyətinə, prinsiplərinə, məzmununa və qruluşuna cəmiyyətin sosial-iqtisadi həyatında gedən proses kimi baxır" [3,47].

Eyni zamanda mahiyyətcə informasiya dövriyyəsi zamanı baş verən mütaliə prosesi özlüyündə hər bir şəxs tərəfindən həyata keçən psixoloji prosesdir. Bu proses isə hər hansı bir informasiyanın cəmiyyətdə yayılmasına, hamılıqla qəbul edilməsinə, nəticədə dövr etməsinə xidmət etdiyindən artıq bu halda sosial statusa malik olur. İnformasiya dövriyyəsi hər bir elmin prizmasında özünü tam fərqli və daha da mükəmməl tərəflərini göstərir. Onun dövr etmə dairəsini obrazlı ifadə etmək üçün isə gərəkdi ki, sosiologiya elminin tərifinə nəzər salaq: "Sosiologiya cəmiyyətin strukturunu, onun elementlərini, mövcud olma şərtlərini, həmçinin cəmiyyətin strukturunda gedən sosial prosesləri öyrənən elmdir" [7, 373].

Göründüyü kimi cəmiyyətin strukturunu, orada baş verən proseslərin istiqamətini müəyyən etsək, əslində informasiyanın hərəkət trayektoriyasının istiqamətini müəyyən etmiş olarıq.

"İnformaisya təqdimat formasından asılı olmayaraq şəxslər, əşya, fakt, hadisə və proseslər haqqında məlumatlardır" [2, 287]. Verilən tərifdən belə bir nəticə çıxartmaq olar ki, əslində informasiyanın cəmiyyətdə dövriyyəsi bəşər yaranandan daima insanın gündəlik həyatında hər an müşahidə olunur. "İnformasiya dövriyyəsi" cəmiyyətdə, sosial həyatda fikirlərin, düşüncələrin daimi, fasiləsiz hərəkətidir. İnformasiyanı bir tərəfli qaydada araşdıran tədqiqatçılar çox olmuşdur. Lakin informasiyanın çoxaspektli istiqamətdə araşdıranlar azdır. Onlardan biri də görkəmli rus kitabxanaşünas alimi Nikolay Aleksandroviç Rubakindir. O, məsələni psixoloji, sosioloji və kitabxana işi istiqamətində təhlil etmişdir. Tədqiqatçı sözə, yazıya, nəşrlərə psixoloji aspektdən yanaşaraq informasiya dövriyyəsini 3 tip bibliopsixoloji dəyərdə cəmləşdirir. Məlumdur ki, "informasiya" anlayışı XX əsrin əvvəllərində yaranmış termindir. N.Rubakin nəzəriyyəsində söz psixoloji dəyər olaraq yazıya, yazı isə nəşr tiplərinə keçərək cəmiyyətdə müəyyən zaman, məkan mühitində dövriyyə edir və sonda yaddaşlarda iz qoyaraq "utilizasiya"[1] olunur. N.Rubakin yazır: "Bizim hər birimiz ətrafdakı mühitdə olan bibliopsixoloji dəyərlərdən istifadə edəndə adətən verdiyimiz dəyərlərdən daha çoxunu alırıq. Sosial mühitdən, kollektivdən aldığımız dəyərlərin alınma-qavrama psixologiyasını sosial mühitə verdiyimiz dəyərlərin ötürülmə psixologiyasından fərqləndirmək lazımdır, hansı ki, bu ötürülmə fərdi yaradıcılıqla doludur" [6, 57]. Bu bir qanunauyğunluqdur ki, informasiya daima bir mənbəydən mənsəbə doğru axmaqdadır. N.Rubakin bu məsələnin psixoloji tərəfini qabardaraq "ötürən və qəbul edən" anlayışlarını diqqət mərkəzinə gətirir. Dəyərlərin mübadiləsi zamanı isə, yəni insanların

---

[1] *Utilizasiya" rus dilindən tərcümədə istifadə edilmə, işlədilərək bitmə deməkdir. Bibliopsixoloji dəyərlərin (şifahi söz, əlyazma, nəşr) oxunma, dinləmə, yazı vasitəsi ilə qavranılaraq, istifadə edilərək real həyata tətbiq olunması, istifadə edilməsidir.*

informasiya mübadiləsi zamanı insanın həm bioloji, həm də sosioloji və psixoloji varlıq kimi mühitə olan reaksiyaları tədqiqat obyektinə çevrilir ki, bu da müasir dövrdə-informasiya əsrində informasiyanın yaddaşlarda yaratdığı maraqlı psixoloji-soioloji tərəfləri üzə çıxarır.

Əgər desək ki, şifahi söz, əlyazma, nəşr kimi bibliopsixoloji dəyərlər N.Rubakinin yaradıcılığında tamlığı ilə müasir informasiya anlayışını əks etdirir, yanılmarıq. Müasir dövrdə böyük informasiya axını zamanı sonsuz fikir və düşüncələrin sözlər, nəşrlər, elektron resurslar, media, vasitəsilə ötürülməsi məsələsinə gələndə isə N.Rubakin maraqlı məsələni ortaya qoyur: "Oxuduğumuz və ya eşitdiyimiz söz əslində heç bir mahiyyət kəsb etmir, yalnız o halda ki biz oxuma və eşitmə zamanı bilgilərimizin həcmində eşitdiyimiz, oxuduğumuz sözə özümüzün dərk etdiklərimizi daxil edirik, daha müəllifin və danışanın nəzərədə tutduğuna diqqət etmirik." [6, 106]. Etiraf etməliyik ki, danışan və yazan öz fikirlərini hansısa bir mənada qarşı tərəfə çatdırmaq istəyir. Bu məsələnin başqa bir tərəfidir. Başqa tərəf isə onu qəbul edən tərəfdir. Problemə bioloji tərəfdən yanaşan N.Rubakin qeyd edir: "Diqqəti 2 əsas əlamətə yönəldək, birinci canlı orqanizm, ikinci mühitə - canlı orqanizm yerləşdiyi məkana, canlı orqanizm mühitlə təmasa girərək istənilən aldığı qıcığa reaksiya verir" [6, 72]. Göründüyü kimi hətta sırf bioloji analizdə də 2 əsas fakt ortalığa çıxır ki, bunların biri qıcıqlandırıcıların mənbəyi-mühit, digəri isə bu qıcıqlandırıcıları və ya informasiyaları qəbul edən canlı orqanizm insandır. Mühitlə insanın təması zamanı istər bioloji, istərsə də sosioloji, istər psixoloji olsun, qəbul edilən qıcıqlara cavab reaksiyası meydana gəlir ki, bu da məhz bibliopsixoloji dəyərləri yaradan amil kimi rol oynayır. Deyilənlərə təsdiq kimi isə N.Rubakin yazır: "Nəşr məhsulu, əlyazma, şifahi söz özlüyündə xüsusi qıcıqlandırıcılar rolunda çıxış edir ki, yəni bibliopsixoloji qıcıqlandırıcı kimi özünü göstərir. Oxumaq, qulaq asmaq, yazmaq əslində nəşr, əlyazma, söz kimi qıcıqlandırıclara qarşı bizim orqanizmin cavab reaksiyasıdır" [6, 75].

İnformasiya anlayışı N.Rubakinin tədqiqatında söz, əlyazma, nəşr məhsulunun tipi kimi əks olunur, bibliopsixologiya nəzəriyyəsində daha geniş bir kateqoriyaya malik olduğu göstərilir. "İnformasiya" anlayışının daha ətraflı ifadə etmək üçün N.Rubakin tədqiqatında 3 əsas məsələni qeyd etmək lazım gəlir. Alim bibliopsixologiyanı 3 əsas qanunla təyin edir:

1) Semon[2] qanunu. Yaddaş qanununda irsiyyət hüceyrə yaddaşı ilə izah edilərək psixoloji proseslərin əsası kimi verilmişdir [6, 16].

2) Humboldt-Potebnya[3] qanunu. Bu qanun N.Rubakinin baxışında bu cürdür: "İnsan nitqi onun ən xırda detalına qədər belə hər bir söz, hərf, səs,

---

[2] *Rixard Semon (1859-1918) biologiya üzrə alman alimidir. Yaddaşla bağlı bir çox elmi əsərlərin müəllifidir. Onun fikrincə, irsi yaddaşın əsasını hüceyrəvi yaddaş təşkil edir. "Semon mnemas"ı nəzəriyyəsinin müəllifidir.*

psixi halların hərəkətə gətirilməsidir ki, bu da yaddaşı fəallaşdırıcı təsir edən kimi ifadə olunur” [6, 17].

3) “Tena[4]qanunu: “Mnemaya[5] daxil olan fasiləsiz enqrammalar[6] hansı ki özlüyündə eyforiyaların[7] kəmiyyət və keyfiyyət tərəflərini təyin edir. Bunlardan birinci daima kütlə ilə, ikinci ətraf mühitlə, üçüncü isə zamanla funksional asılılıqdadır” [6, 20].

Bibliopsixologiyanın qeyd olunan bu əsas 3 qanunu informasiyalaşmış cəmiyyətdə “informasiya” anlayışının və onun dövriyyəsinin görünməyən tərəflərini özündə cəm edir.

İlk öncə Semon qanunu-mnema nəzəriyyəsi ilə tanış olaq. N.Rubakin yazır: “Mnema” termini alman alimi prof. Rixard Semon tərəfindən XX yüzilliyin əvvəllərində elmə daxil edilib. “Mnema” termininə R.Semon xüsusi əhəmiyyət verərək onu”yaddaş”sözünün əvəzinə işlətmişdir [6, 93]. İlk baxışda “mnema” termini yaddaş kimi qəbul etmək olar. Lakin “mnema” öz mahiyyətini “enqramma” adlanan anlayışla ifadə edir. N.Rubakin R.Semonun fikrinə istinadən qeyd edir ki, “Enqramma insan orqanizmi tərəfindən qəbul edilən və edilməyən qıcıqların (informasiyaların) yaddaşda yazılmasıdır” [6, 95].

İnsan doğulduğu andan ona gündəlik həyatda mühitdən gələn sonsuz sayda qıcıqlandırıcılar təsir edir ki, bu da həm şüurlu, həm də şüuraltı səviyyədə yaddaşa yazılır və ya “enqramma” olunur. N.Rubakin “mnema”(yaddaş) anlayışını bu cür ifadə edir: “Bütün enqrammaların - yaddaşa yazılanların cəmi “mnema” adlanır [6, 95]. Alim belə bir nümunə gətirir: “Hər hansı bir uşağı arı sancır. Bu zaman yaddaşda qəbul edilən qıcıqlar tamlığı ilə qeyd olunur. Uşağın qışqırmağı, arının şəkli, ağrı və s. hər bir detal hadisə zamanı baş verənlər enqramma olunur. Əgər yaddaşda güclü bir psixoloji iz buraxıbsa,

---

*[3] Humboldt-Potebnya. Vilhelm Humboldt (1767-1835) alman alimi, filoloqu, Aleksandr Potebnya (1835-1891) isə Harvard universitetinin professorudur. Nitqin insan yaddaşında yaratdığı qıcıqlar barədə fikirlərinin eyni olduğuna əmin olan N.Rubakin hər iki alimin tədqiqatlarına istinad edərək deyilənləri “Humboldt-Potebnya qanunu” adı altında birləşdirmişdir.*

*[4] İppolit Ten (1828 1893) fransız yazıçısı, filosofu və alimidir. Bir çox fəlsəfi-sosioloji və psixoloji əsərlərin müəllifidir. O, incəsənət aləmində mədəni-tarixi məktəbin yaradıcılarından biridir.*

*[5] Mnema - “Bütün enqrammaların - yaddaşa yazılanların cəmidir.*

*[6] Enqramma rus dilindən tərcümədə “yazılma”, “qeyd olunma” mənasını ifadə edir. Enqramma insan orqanizmi tərəfindən qəbul edilən və edilməyən qıcıqların (informasiyaların) yaddaşda yazılmasıdır.*

*[7] Eyforiya - yunan dilindən tərcümədə “çıxarılma” mənasını verir. Yaddaşda olanların müəyyən qıcıq nəticəsində hiss və emosiylarla yenidən xatırlanmasıdır.*

ikinci dəfə uzaq məsafədən arının görünüşü və səsi uşaqda "eyforiya" adlanan "əvvəlki yaddaşa yazılanı" yada salma prosesi ilə müşahidə olunur [6, 96].

N.Rubakinin mnema, enqramma, eyforiya kimi anlayışları təhlil edir. Aydın olur ki, müasir insan informasiyalaşmış sosial cəmiyyətdə, mühitdə informasiya vasitəsi ilə sonlu sayda enqrammaları yaddaşında saxlayaraq zamanın və mühitin tələbi ilə müxtəlif eyforiyalara məruz qalır. N.Rubakinin təbirincə desək: "Orqanizm enqrammaların lazımlı və lazımsız, həyati əhəmiyyətli olub-olmamasını təbii seçmə yolu ilə seçir və digər lazımsızları isə müxtəlif səbəblərdən yaddaşdan silib atır. İnsan yaddaşındakı enqrammalar arasında bəzən özlüyündə yaddaşda qalmaq uğrunda mübarizə gedir" [6, 97].

Etiraf etməliyik ki, geniş informasiya axını olan cəmiyyətimizdə hər gün yaddaşımıza sonsuz sayda informasiya enqramma olunur və yaddaşda qalmaq uğrunda mübarizə aparır. Deyilənlərin hər hansı fərdin şəxsi və sosial meyarlarının əsas təyinedicisi kimi qiymətləndirən N.A.Rubakin yazır: "Yaddaşda enqrammaların qalıb-qalmaması məsələsində yaddaşın özü böyük rol oynayır. Bu isə özlüyündə fərdin şəxsi psixoloji əhval-ruhiyyəsindən təfəkküründən, energetik vəziyyətindən asılı olan tərəfdir" [6, 97].

N.Rubakin insanın ətrafdan gələn informasiya axınına olan reaksiyalarını təhlil edərək kitabın, yazının, sözün təsiredici aspektlərini xüsusi qeyd edir. O yazır: "Yaddaşa yazılma - enqramma olunma və bütövlükdə enqrammaların cəmi - "mnema" özlüyündə real dünyanı qəbul etmək, dərk etmək üçün özünəməxsus psixi prosesləri yaradır ki, bu da səs və hərflər, söz və ifadələr, ümumilikdə mətnlər vasitəsilə əks olunur" [6, 97].

Bibliopsixologiya nəzəriyyəsində Semon qanun öz mahiyyətini "Söz" və onun yaratdığı proeksiyasında tam əks olunur. Bunu isə hər hansı bir şəxsin informasiyanı qəbul etmə prosesində görmək olar. Üç müxtəlif şəxsə "it" sözünü deyəndə onların yaddaşında müxtəlif fərqli obrazlar canlanır. Çoban bu sözü eşidəndə "çoban iti", evdar xanım "balaca küçüyü", şəhərdə yaşayan cavan oğlan isə küçə itini canlandırır. İnformasiyanın obrazlı qəbulu da bu cür baş verir, bir yaşlı və gənc insan eyni şəklə diqqət edəndə onların qəbul etdikləri, dərk etdikləri tam fərqlidir. Çünki hər biri özlüyündə malik olduğu mnema-yaddaş həcmindən asılı olaraq gördüklərini qəbul edirlər. Bu misallardan N.Rubakin belə bir nəticə çıxarır: "Proeksiyanın qurulması eşidən, oxunan, görülən zaman mövcud olduğumuz psixi hallardan, əhval ruhiyyədən, yaddaşın özündə cəm etdiyi enqrammalardan çox aslıdır" [6, 103].

Həmin fikirlərə isnadən demək olar ki, söz, kitablar, yazı və s. müxtəlif vasitələrlə qəbul edilən informasiyalar hər bir insan tərəfindən özünəməxsus fərqli proeksiya əsasında qurulur. Deməli, hər bir oxucu mütaliə zamanı oxuduğu kitabın proeksiyasını yaratmaqla şəxsi proeksiyasını oxuduğu kitabın məzmunu kimi qəbul edir və oxuduğu materialın keyfiyyətini bu formada qiymətləndirmiş olur. Bu məsələyə münasibətdə N.Rubakin yazır: "Biz kitabları

və nitqləri bilmirik, onların mahiyyətini başa düşmürük, biz özümüzün şəxsi proyeksiyalarımızı və bu proyeksiyalara öz yaddaşımızdan irəli gələn, qoyulan fikirləri dərk edirik, amma heç də müəllif və natiq tərəfindən verilən informasiyalarda yerləşdirilənlərin mahiyyətini dərk etmirik" [6].

Bibliopsixologiyanın ikinci əsas qanunu Humbolt-Potebnya qanunudur. Bu qanun informasiyanı ötürənlə qəbul edən arasında daha gizli və sirli qalan tərəfləri aydınlaşdırır. N.Rubakin deyilənləri bu fikirlə isbat edir: "Söz, ifadə, kitabın mahiyyəti nəyisə ötürmək demək deyil, əslində hər bir şəxsi fərdi yaddaşda-mnemada psixi halların yaranmasına səbəb olan qıcıqlandırıcıları yaratmaq deməkdir" [6, 108]. Alim problemə daha dərindən yanaşaraq bildirir ki, informasiyanı ötürənlə qəbul edən arasında ziddiyyət mövcuddur. Tədqiqatçı yazır: "Deyilənlərin ünvana çatması üçün dinləyici və oxucu yaddaşındakı enqrammalar ilə müəllif və natiqin malik olduğu mnema oxşarlıq kəsb etməlidir" [6, 108]. Bunun ardınca A.Potebnya öz fikrini N.Rubakinin tədqiqatında belə əks etdirir: "Danışmaq yalnız fikri ötürmək demək deyildir, həm də qarşıdakı şəxsdə deyilənə uyğun fikri oyatmaq deməkdir" [6, 109].

Humbolt və Potebnya qanunauyğunluğu "kitabın mahiyyətinə" və ya informasiyanın özündə ehtiva etdiyi anlayışlara diqqət etməkdən daha çox oxucuya, reaksiya verənə, informasiyanı qəbul edənə diqqət etməyi tövsiyə edir. Çünki informasiyanı qəbul edən subyektin reaksiyası həm fərdin, eyni zamanda kollektivin daxili dünya görüşünü ortaya qoyur, eyni zamanda informasiyanın yaradılmış reaksiya əsasında dəyərini müəyyən edir.

Bibliopsixologiyanın üçüncü qanunauyğunluğu isə Tena qanunudur. N.Rubakin Tena qanunu ilə bağlı yazır: "Bizim yaddaşımıza daxil olan enqrammalar eyforiyaların kəmiyyət və keyfiyyətlərini şərtləndirir və həmişə kütlə, ətraf mühit və zamanla funksional asılılıqdadır" [6, 114]. Bu qanunauyğunluq yaddaşın həcminin təsnif edilməsində təzahür edir.

Daha ətraflı desək, qəbul olunan informasiyaların bibliopsixoloji təsnifatı insan yaddaşında toplanan informasiyanın həcmini müəyyən edir. Belə ki, N.Rubakin təsnifləşdirməni enqrammaların mənbəyinə əsasən aparmağı tövsiyyə edir. Müəllif bunu aşağıdakı kimi qruplaşdırır: "1) İrsi yaddaş, 2) Sosial yaddaş, 3) Fərdi yaddaş" [6, 114].

Tədqiqatçının təhlillərində bu üç istiqamətdə yaddaşın bir-biri ilə daima əlaqədə olması və filogenezis prosesində birinin digərinə çevrilməsi qeyd olunur. Məntiqlə yanaşsaq görmək olar ki, istənilən bir fərd həm irsi yaddaşa, həm sosial (kollektiv), həm də fərdi yaddaşa malikdir.

Sonuncu üç qanunla birlikdə informasiyanın cəmiyyətdə insanlar arasında dövriyyəsinin tam aydın, geniş obrazı yaranır. Belə ki, milyonlarla insanların hər birinin zamanın müəyyən anında qəbul etdiyi informasiyalar enqramma olunaraq yaddaşa yazılır, sonra isə müəyyən vaxtdan sonra irsi olaraq yeni nəsilə ötürülür. Kitabxana işində bu mənada irsi yaddaş hər an bizi izlə-

məkdədir. Konkret olaraq nümunəni “Qarabağ” müharibəsindən gətirə bilərik. Minlərlə köçkün düşən insanların övladları, yeniyetmələrin görmədikləri mənfi halları genetik olaraq qəbul edirlər. Bu isə onların fantaziya və düşüncələrində daima ədalət, əzmkarlıq, sağ qalmaq uğrunda mübarizə, həmçinin qorxu kimi hisslərin daha qabarıq formada inkişaf etməsinə səbəb olur və yaxud da ki, istedadlı valideynlərin övladlarının bədahətən şer deməsi, yazı yazması və s. kimi irsi-instinktiv yaddaşın mövcudluğunda özünü təzahür etdirir. N.Rubakin bütün bunların timsalında aşağıdakıları istinad verir: “Bizim hər birimizdə irsi mnemamız (yaddaşımız) özündə sonsuz və fövqəl instinktləri saxlayır. Onlar aydın olmaya da bilər. Müəyyən hərəkətlərə doğru istiqamətlənmə, anadangəlmə reflekslər və s. kimi özünü göstərə bilər” [6, 17]. Bütün bunlarla yanaşı bir məqamı da diqqətə çatdırmaq istərdim. Özlüyündə yaddaş şəxsiyyət xarakteri daşıyır. Milli-mənəvi dəyərlərin formalaşmasında və qorunub saxlanılmasında şəxsiyyətin çox böyük rolu vardır. Hər hansı bir fərdin şəxsiyyət kimi formalaşması mühit anlayışından çox aslıdır.

Prof. Ə.Bayramov yazır: “İnsanın hansı iqlim şəraitində, harada - dağlıq yerdə və ya dəniz sahillərində və s.də yaşamasından asılı olaraq onun həyat tərzində, mənzil şəraitində özünəməxsus cəhətlər əmələ gəlir. Şəxsiyyətin inkişafında sosial amillər isə müəyyənedici rol oynayır. Sosial amillər müxtəlifdir və onlar qarşılıqlı əlaqədə şəxsiyyətin inkişafını şərtləndirir” [5, 133].

Sosioloji mühitdən gələn informasiya axını şəxsiyyətin formalaşmasına təsir edən bibliopsixoloji amil rolunu oynayır. Bu barədə dosent Knyaz Aslan yazır: “Başqa sözlə, şəxsiyyət ictimai (sosial) mahiyyətə malikdir. Cəmiyyətdən və kollektivdən təcrid olunmuş insan şəxsiyyət kimi formalaşa bilməz. O yalnız bioloji istiqamətdə formalaşar və heyvanlardan çətin fərqlənər. Deməli, insanın sosial keyfiyyətləri (zehni, əxlaqı dünyagörüşü və s.) yalnız kollektivdə, cəmiyyət daxilində formalaşır və inkişaf edir” [4, 17].

N.Rubakin cəmiyyətdə inkişaf edən fərdin genetik yaddaşının formalaşan və ifadə olunan mənbəyini sosial mühitdə görür. Bu isə bibliopsixologiyada “sosial mnema-yaddaş” termini ilə əks olunur. Hər birimiz cəmiyyətdə bir fərd olaraq daim informasya qəbul edirik ki, bu, müxtəlif formada enqramma, eyforiya ilə müşahidə olunur, sonda isə sosial mnemanı daha da zənginləşdirir, sosial yaddaşa informasiya axını müxtəlif formalarda daxil olur. Ona görə də daxil olan enqrammaların cəmi özlüyündə sosial yaddaş mnemanın təsnifatını göstərir. N.Rubakinə görə sosial mnemanın əsas növləri bunlardır: 1) Ailə yaddaşı; 2) Yerli yaddaş; 3) Milli yaddaş; 4) Dövlət yaddaşı; 5) Beynəlxalq yaddaş; 6) Peşə yaddaşı; 7) Sinfi yaddaş; 8) Təhsil yaddaşı (məktəb və kitab mənşəli enqrammalar); 9) Konfessionlal (dini) yaddaş; 10) Gündəlik tarixi yaddaş; 11) Tarixin mövcud mərhələsinin yaddaşı; 12) Kosmik yaddaş: a) coğrafi şəraitdə şərtlənən yaddaş; b) üzvi və qeyri üzvi yaddaş” [6,120].

Verilən təsnifatda hər bir bölüm özlüyündə bibliopsixoloji dəyəri əks etdirməklə yanaşı informasiya mənbəyi kimi də çıxış edir. Lakin sosial mühitdən hər bir fərdə təsir edən informasiya axınının nəticəsi fərdi yaddaşlarda cəmlənir ki, bu da fərdi mnema anlayışını yaratmış olur. Hər bir fərd özünəməxsus keyfiyyətlərə malik olduğu kimi onun fərdi mneması da təkrarolunmazdır. N.Rubakin yazır: "Dərk etmədiklərimiz, anlaşılmaz bilgilər, ümidlər, qarışıq fikirlərimiz özlüyündə fərdi mnemanın elementləridir ki, burada emosiyalar, hisslər, ehtiraslar, effektlər, arzular, istiqamətlər, ümumilikdə hər bir fərdin daxili " Mən" adlanan kateqoriyasında gizli olan enqrammaların cəmi fərdi mnemadır. Fərdi mnema (yaddaş) digər "qeyri-mən"ə tamlığı ilə aydın ola bilməz. Bu yalnız fərdin özünə daha anlaşılandır" [6,123].

Deməli, cəmiyyətdə informasiya mübadiləsi, yalnız sosial mnema əsasında baş verir. Sosial mnemanın yaratdığı psixoloji proeksiyalar, enqrammalar, eyforiyalar təkrarlanaraq fərdlərdən ibarət cəmiyyətin yaddaşında dövri olaraq təkrarlanır. N.Rubakin "fərdi mnema"(yaddaş) anlayışına önəm verərək yazır: "Fərdi mnema(hafizə) bibliopsixoloq üçün xüsusilə maraqlıdır. Bu söz yaradıcılığının mənbəyidir. Yaradıcılıq özü fərdi fəaliyyətdir" [6,123].

Bu günədək "şəxsiyyətin fərdi psixologiyası" məsələsi elmdə hələ də tədqiqata ehtiyac duyan problemdir. Sonda N.Rubakin vacib, orjinal məsələləri təklif olaraq aşağıdakı kimi təhlil edir: 1) Fərdin genetik-irsi yaddaşı maksimal istifadə olunmalıdır; 2) Buna söykənərək irsi yaddaşa sosial xarakterli, əhəmiyyətli enqrammalar daxil edilməlidir; 3) Fərdin özünəməxsus yaddaşının onun sosial yaddaşı ilə yaxınlığını təmin etmək. Bu üç prinsipə əməl olunmaqla hər bir fərddə ilkin enqrammalar yaradacaq ki, bu da reallığı aydın əks etdirəcəkdir [6,123-124].

Bu məsələlərin üçü də sosial cəmiyyətdə insanın fərdi yaddaşını anlaşılan səviyyəyə gətirməyi qarşıya məqsəd qoyur. Digər tərəfdən N.Rubakin insanın aldığı ilkin qıcıqlar zamanı yaddaşımızda yazılan qıcıqları 2 növə bölür: ilkin enqrammalar və sonrakı yaddaşda fantaziya olunaraq dəyişikliyə uğramış enqrammalar. Onun təhlillərindən belə bir nəticə çıxır ki, insanın reallıqdan qəbul etdiyi informasiyaların yaratdığı ilkin enqrammalar sonradan müxtəlif səbəblərdən dəyişərək eyforiya olunsa da, həqiqi reallığı əks etdirmir. Bu da problemin hərtərəfli araşdırılmasına ehtiyac olduğunu göstərir.

N.A.Rubakinin bibliopsxologiya nəzəriyyəsində dəyərlərin dövriyyəsi müasir terminlə desək, informasiya dövriyyəsi kimi səslənir və daima irsi, sosial və fərdi yaddaşlarda dövr edir. Ona görə də unutmaq olmaz ki, "bibliopsxiologiya nəzəriyyəsində informasiya dövriyyəsi" dedikdə informasiyanın məhz yaddaşlarda dövriyyə edərək müəyyən bibliopsixoloji iz yaratması nəzərdə tutulur ki, bu da özlüyündə bibliopsixoloji dəyər olaraq şifahi söz, əlyazma, kitab və elektron nəşr tipi (modern forma) kimi ifadə olunur. Bu məsələlər nəzərə alınmalı və bibliopsixologiyada tədqiqatlar aparılmalıdır.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. Bakı, 2001, 400 s.*
2. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312 s.*
3. *Rzayev S. Kitabxana xidməti. Dərslik. Bakı, 2009, 338 s.*
4. *Knyaz Aslan. Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2008, 324 s.*
5. *Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Dərslik. Bakı,2009,620 s.*
6. *Рубакин Н.А. Библиологическая психология. М., 2006, 800 с.*
7. *Фролов С.С. Общая социология: учеб. М., 2008, 384 с.*

## THE INFORMATION CYCLE IN THE BIBLIOPSICHOLOGICAL THEORY

**E.L.AZHDAROV**

### *SUMMARY*

*In Nikolay Rubakina's theory it is reflected modern problems of an information society. In article the theory of bibliopsichological is considered and its laws which is connected with an information society. And also speaks bibliopsichological parties of the information cycle.*

## ИНФОРМАЦИОННЫЙ ЦИКЛ В ТЕОРИИ БИБЛИОПСИХОЛОГИИ

**Э.Л.АЖДАРОВ**

### *РЕЗЮМЕ*

*В теории Николая Рубакина отражаются современные проблемы информационного общества. В статье комментируется библиопсихологическая теория и её законы, которые связаны с информационным обществом. А также объясняется библиопсихологические явления информационного цикла.*